

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 180 (21.841)

23 sentyabr 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Balaxanı Sənaye Parkının açılışında iştirak edib. Dövlətimizin başçısı Balaxanı bərk məişət tullantılarının zərərsizləşdirilməsi poliqonunda görülən işlərlə də tanış olub.

Görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verilib.

Balaxanı Sənaye Parkının yaradılması ölkəmizdə yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsi, qeyri-neft sektorunun, o cümlədən "yaşıl iqtisadiyyat"ın inkişafı, əhalinin istehsal sahəsində məşğulluğunun artırılması, Bakı şəhəri və ətraf qəsəbələrdə ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədinə xidmət edir.

Prezident İlham Əliyev Balaxanı Sənaye Parkının rəmzi açılışını bildirən lenti kəsib.

Dövlətimizin başçısı Balaxanı Sənaye Parkında yaradılan müəssisələrlə yaxından tanış olub.

Sonra xatirə şəkli çəkdirilib.

Daha sonra Prezident İlham Əliyev Balaxanı bərk məişət tullantılarının zərərsizləşdirilməsi poliqonu ilə tanış olub.



## Muxtar respublikadakı dinamik iqtisadi artım əhalinin sosial rifahını təmin edib

### Cari ilin 8 ayının nəticələri bunu deməyə əsas verir

***Əhalinin sosial rifah halının yüksəlişinə nail olmaq həyata keçirilən iqtisadi siyasətin əsas məqsədlərindən biridir. Bu baxımdan iqtisadi artımın yüksələn dinamikasını qoruyub saxlamağa xidmət edən bir çox mühüm tədbirlər diqqətdə saxlanılır. Dünya bazarındakı qeyri-müəyyənlik və mürəkkəb iqtisadi şəraitə baxmayaraq, ölkəmizdə və onun tərkib hissəsi olan muxtar respublikamızda iqtisadi inkişafın yüksələn tempi əhali gəlirlərində də hiss olunmaqdadır. Naxçıvanda sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, yeni iş yerlərinin yaradılması və səmərəli məşğulluğun təmin olunması sahəsində aparılan dövlət siyasəti də bu məqsədə xidmət edir.***



Naxçıvan Muxtar Respublikasının stabil iqtisadi artım tempi iqtisadi inkişafın ən mühüm göstəricilərindən biri olan ümumi daxili məhsulun həcmində özünü göstərir. Belə ki, 2017-ci ilin yanvar-avqust aylarında muxtar respublikada 1 milyard 705 milyon 749 min 400 manatlıq ümumi daxili məhsul istehsal olunub ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çoxdur.

Bəhs olunan dövrdə muxtar respublikanın sosial-iqtisadi inkişafının digər göstəricilərinə nəzər saldıqda görürük ki, regionda sənaye, kənd təsərrüfatı, tikinti-quruculuq, xarici ticarət, bank-kredit və xidmət sahələrində də artım dinamikası təmin olunub, əhali gəlirlərində yüksəliş templəri qorunub saxlanılıb. Belə ki, cari ilin yanvar-avqust ayları ərzində muxtar respublikada əhalinin gəlirləri ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz artaraq 1 milyard 189 milyon 760 min 200 manat, onun hər bir nəfərə düşən məbləği isə 0,2 faiz artaraq 2642,2 manat təşkil edib. Bu dövr ərzində muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 414,3 manat təşkil edib ki, bu göstərici 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çox olub.

Əhali gəlirlərinin formalaşmasında ən mühüm amillərdən biri sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və yeni iş yerlərinin yaradılmasıdır. Məhz bu baxımdan Naxçıvan Muxtar Respublikasında azad sahibkarlığın dəstəklənməsi, kiçik və orta sahibkarlığa göstərilən qayğı ötən dövr ərzində də yerli istehsalın stimullaşdırılmasına, məşğulluğun səviyyəsinin artırılmasına və əhali gəlirlərinə öz təsirini göstərib. Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanlarının davamlı olaraq yaxşılaşdırılması nəticəsində 2017-ci ilin yanvar-avqust aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 21 milyon 52 min 500 manat məbləğində kreditlər verilib. Verilmiş kreditlərin 3 milyon 82 min 400 manatı və yaxud 14,6 faizi qısamüddətli, 17 milyon 970 min 100 manatı və yaxud 85,4 faizi uzunmüddətli kreditlər olub. Belə səmərəli kreditləşmə mexanizminin təmin edilməsi ilə regionumuz üçün çox mühüm olan yeni istehsal və xidmət sahələrinin yaradılması və bunun da nəticəsində əhali gəlirlərinin artırılması mümkün olub. Nəticədə, əldə edilən davamlı iqtisadi sabitlik uzaq perspektivə yönəlmiş stabil inkişafın zəmanətçisi kimi özünü göstərir.

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Yeni iqtisadi şəraitdə Naxçıvan Muxtar Respublikası iqtisadiyyatında çoxşaxəliliyin təmin olunmasında sənaye sahələri öncül yer tutur. Yeni texnologiyadan istifadə ilə yerli resurslardan daha səmərəli istifadə olunmasında sənaye sahələrinin inkişaf etdirilməsi öz bəhrəsini verməkdədir. Belə ki, cari ilin yanvar-avqust aylarında sənaye üzrə 708 milyon 256 min manat dəyərində məhsul istehsal edilib ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricidən 1,4 faiz çoxdur.

Kənd təsərrüfatı muxtar respublika əhalisinin əsas məşğuliyyət sahələrindən biridir. Naxçıvan Muxtar Respublikasında əkin sahələrindən səmərəli istifadə olunması və ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərin nəticəsi olaraq 2017-ci ilin yanvar-avqust aylarında 279 milyon 334 min 800 manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal edilib. Bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 3,6 faiz üstələyib. Bu dövr ərzində muxtar respublika üzrə diri çəkidə 13 min 192 tondan çox ət, 66 min 50 tondan çox süd istehsal edilib ki, bu da bir il öncəki göstəricilərlə müqayisədə müvafiq olaraq ət istehsalı üzrə 3,2 və süd istehsalı üzrə isə 7,3 faiz artım deməkdir.

İqtisadi inkişafın mühüm göstəricilərindən biri də xarici ticarətin həcmidir. Məhz aktiv xarici ticarət hesabına əldə olunan müsbət saldo ölkəmizin valyuta ehtiyatlarının artmasına və iqtisadi təhlükəsizliyin təmin olunmasına imkan yaradır. Naxçıvanın ixrac imkanlarının artırılması istiqamətində görülən tədbirlər sahibkarlar qarşısında geniş imkanlar açıb. Nəticədə, 2017-ci ilin yanvar-avqust aylarında muxtar respublikada 304 milyon 838 min 500 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın dəyəri son bir il ərzində 1,2 faiz artaraq 284 milyon 341 min 600 ABŞ dolları, idxalın dəyəri 27,1 faiz azalaraq 20 milyon 496 min 900 ABŞ dolları təşkil edib, nəticədə, 263 milyon 844 min 700 ABŞ dolları dəyərində müsbət saldo yaranıb.

Görülən tədbirlər, həyata keçirilən irimiqyaslı layihələr muxtar respublikamızın iqtisadi potensialının artırılması ilə paralel olaraq özünü insanların rifah halının yüksəldilməsində də göstərir. İndi Naxçıvanın iqtisadiyyatı yerli əhalinin və regiona səyahət edən yüz minlərlə turistin hər cür tələbatlarını ödəyə biləcək gücdədir. 1 avqust 2017-ci il tarixə Naxçıvanda yaşayan əhali sayının bir il öncəsinə nisbətdə 0,9 faiz artaraq 451 min nəfəri ötməsi və cari ilin yanvar-avqust aylarında muxtar respublikaya 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz çox, yəni 243 min nəfərdən artıq turist gəlməsi dediklərimizi bir daha təsdiq edir.

Bütün bunlar Naxçıvan Muxtar Respublikasında əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi inkişaf strategiyasının uğurla davam etdirilməsi, iqtisadi inkişaf nəticələrinin sosial və humanitar sahəyə transformasiya etdirilməsi nəticəsində mümkün olub.

✍ Əli CABBAROV

*Əlverişli coğrafi mövqe və iqlim şəraiti muxtar respublikada ekoloji cəhətdən təmiz, tükənməyən alternativ enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən muxtar respublikada alternativ və bərpaolunan enerji mənbələrinin yaradılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir.*

## Alternativ enerji mənbələrindən istifadəyə diqqət artırılıb

Naxçıvan Dövlət Universitetində "Naxçıvan Muxtar Respublikasında alternativ enerji mənbələrindən istifadə və alternativ enerji mənbələrinin gələcəyi" mövzusunda keçirilən elmi-nəzəri seminarda bu barədə danışılıb.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov muxtar respublikada enerji təhlükəsizliyi məsələlərinin həll olunmasında növbəti mərhələ kimi bərpaolunan alternativ enerji mənbələrindən istifadəyə geniş yer verildiyini qeyd edib.

Ali təhsil ocağının elmi işlər üzrə prorektoru, dosent Mübariz Nuriyev "Alternativ enerji mənbələrinin perspektivləri" adlı məruzəsində bildirib ki, muxtar respublikanın elektrik enerjisinə tələbatının alternativ enerji mənbələri hesabına ödənilməsini təmin etmək və enerji təhlükəsizliyini daha da möhkəmləndirmək istiqamətində görülən işlər uğurlu nəticələr vəd edir. Naxçıvanın enerji ehtiyaclarının tamamilə yerli imkanlar hesabına ödənilməsini nəzərdə tutan layihələrin tətbiqi bu sahədə ixracat imkanlarını daha da artıracaqdır.

Sonda "Con Serlin generatoru" adlı film nümayiş olunub.

**Nərmin CABBAROVA**

## Qaz təsərrüfatı payız-qış mövsümünə hazırlanır

***"Naxçıvanqaz" İstehsalat Birliyi əhalinin qış aylarında təbii qazla fasiləsiz şəkildə təmin etmək üçün müvafiq tədbirlər görür.***

Bu il avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə "Naxçıvanqaz" İstehsalat Birliyinə oktyabr ayının 20-dək qaz təchizatı sistemində texniki baxışın yekunlaşdırılması, mövcud nasazlıqların aşkar edilərək aradan qaldırılması üçün müvafiq tədbirlər görülməsi tapşırılıb. Verilən tapşırıqlarla əlaqədar tədbirlər planı hazırlanaraq icrasına başlanılıb. Belə ki, təbii qaz nəqlinin soyuq hava şəraitinə uyğun texnoloji rejimdə həyata keçirilməsi üçün qazpaylayıcı stansiyalarda qızdırıcı qurğulara xüsusi texniki xidmətlər göstərilir. Qaz təsərrüfatı sisteminin müasirləşməsi, istismarda olan təzyiq və qaz tənzimləyicilərinin, daşıyıcı və paylayıcı qaz kəmərlərinin, nəzarət-ölçü cihazlarının, digər texnoloji avadanlıqların yenilənməsi istiqamətində işlər nəzarətə götürülüb.

Qaz verilişində itkinin qarşısını almaq məqsədilə yeraltı istismara yararsız xətlər yoxlanılaraq yerüstü xətlərlə əvəz olunur, yararsız borular dəyişdirilir. Bu işlər Şərur rayonunun Ərəbyengicə, Qarahəsənli, Ələkli, Culfa rayonunun Dizə, Ordubad rayonunun Üstüpü kəndlərində, Şahbuz rayonunun Badamlı qəsəbəsində və Naxçıvan şəhərində təmir olunan yaşayış binalarında da davam etdirilir.

Şərur rayonunda Vərməziyar-Qışlaqabbas-İbadulla kənd yolunun yatağı genişləndirildiyindən buradakı qaz xətlərinin də yeri dəyişdirilir.

Kadr potensialının artırılması, qaz istismarı sahəsində çalışanların ixtisas dərəcəsi və peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində ixtisasartırma kurslarına işçilərin cəlb olunması da diqqət mərkəzində saxlanılır.

**Xəbərlər şöbəsi**

## Naxçıvan dünən

### Tikinti problemləri çox olsa da...

– İnşaat materiallarının qıtlaşdığı, qiymətlərin tüğyan etdiyi, maliyyə intizamına laqeydliyin adi hala çevrildiyi indiki şəraitdə tikinti təşkilatlarının üzləşdiyi problemlər, çətinliklər daha da çoxalıb. Bunu başçılıq etdiyim dəstənin timsalında bir qədər də açıqlamaq istəyirəm. Neçə vaxtdan bəri cəlb edildiyimiz müharibə, iqtisadi blokada şəraitində yaşamağımız, polad relslərdən qatarların hərəkətinin kəsilməsi, şübhəsiz ki, inşaat işlərinin vüsətinə də öz təsirini göstərib.

Çünki avtomobil nəqliyyatı ilə İran ərazisi vasitəsilə Bakı şəhərindən mal-material gətirmək heç də asan başa gəlmir. Mişar daşı kimi, həddindən artıq ehtiyac duyulan materialları bu yolla daşımaq da mümkün deyil. Digər tərəfdən maşın-mexanizmlərimiz kifayət qədər olsa da, onların da gücündən normal istifadə etmək imkan xaricindədir. Ehtiyat hissələrinin çatışmazlığı, yanacaq materiallarının qıtlığı ona imkan vermir. Elə materiallar vardır ki, onları avtomaşınlarla daşıyıb gətirəndə az qalır ki, astarı üzündən baha başa gəlsin.

Bazar iqtisadiyyatına keçdiyimiz şəraitdə tikinti işlərini gördürmək istəyən sifarişçi təşkilatlar da öz vəzifə borclarını tam yerinə yetirmirlər. Bugünkü tikintinin fərqli cəhəti də odur ki, əvvəllər material verirdilər, tikinti gedirdi. İndi isə çox çətinliklə material əldə edir, bir çox hallarda isə öz vəsaitimiz hesabına müəyyən işləri görürük. Üzləşdiyimiz bu və ya digər çətinliklər heç də boş dayanmağımıza, əlimizi-əlimizin üstünə qoyub yuxarı təşkilatlardan nə isə ummağa haqq vermir. Bu gün konkret sahələrə cavabdeh olan bir çoxları öz bacarıqsızlıqlarını, səriştəsizliklərini ölkəmizdə gedən müharibə, düçar olduğumuz blokada bəhanəsi ilə ört-basdır etməyə çalışsalar da, əslində, onlar astagəllikdən, köhnəfikirlikdən əl çəkmir, yeni dövrlə ayaqlaşa bilmirlər.

**Həsənqulu QURBANOV**
**"Şərq qapısı" qəzeti**
**1994-cü il, 12 oktyabr**

## və bu gün

### Öz daşlarımızla ucalan




***"Şərq qapısı" qəzetinin 1994-cü il 12 oktyabr tarixli sayında dərc olunmuş bu məqalə Naxçıvanın tikinti təşkilatlarının qarşılaşdığı problemlərin yalnız cüzi bir hissəsini gözlər önünə sərir. Bəs 1994-cü ildən sonra muxtar respublikanın tikinti sektorunda nələr baş verdi? Elə bu yazımızda da bu dövrə nəzər salacağıq. Çünki bu illərdə bütün sahələrdə olduğu kimi, inşaat sahəsində də inqilabi dəyişikliklər baş verib, hər kəndimiz, hər şəhərimiz abadlaşıb, müasir ünvanlar sırasına qoşulub.***

...1995-ci ildən etibarən muxtar respublikanın ictimai-siyasi və sosial-iqtisadi həyatında köklü dəyişikliklər baş verdi. Aparılan uğurlu siyasət nəticəsində baş alıb gedən siyasi və iqtisadi böhran aradan qaldırıldı. Tikinti sahəsində də xeyli irəliləyişlər əldə olundu. İnşaatda istifadə edilən materiallara olan tələbatın yerli imkanlar hesabına ödənilməsi üçün ayrı-ayrı müəssisələr fəaliyyətə başladı. Bununla həm əlavə xərclərin qarşısı alındı, həm də vaxt itkisi aradan götürüldü. Nəticədə, sovet dövründə illərlə tikintisi yubanan obyektlərin inşası indi tez bir zamanda, həm də əvvəlkindən qat-qat keyfiyyətlə aparılır.

Bu gün muxtar respublikamızda quruculuq işləri geniş vüsət alıb. Şəhər və rayonlarda müasir binalar tikilir, magistral yollar salınır, kənd və qəsəbələr abadlaşdırılır, yeni istirahət guşələri yaradılır. Son illər muxtar respublika iqtisadiyyatında yüksək templə inkişaf edən sahələrdən birinə çevrilən və yerli istehsalın stimullaşdırılmasında mühüm əhəmiyyətə malik olan sənaye sektorunda həyata keçirilən tədbirlər nəticəsində idxaləvəzləyici və ixracyönümlü məhsullar istehsal edən rəqabətqabiliyyətli müəssisələr fəaliyyətə başlayıb. Həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri nəticəsində inşaat materiallarına artan tələbatın yerli istehsal hesabına ödənilməsi üçün bu gün muxtar respublikada böyük imkanlara malik şirkətlər fəaliyyət göstərir, bu qəbildən materialların, demək olar ki, əksər hissəsi yerli imkanlar hesabına ödənilir. Bu müəssisələrdə istehsal edilən məhsullar daxili bazarın tələbatını tamamilə ödəməklə yanaşı, xarici bazarlara çıxmağa da imkan yaradır. Əvvəllər bu inşaat materiallarına olan tələbat xaricdən idxal olunan məhsullar hesabına ödənilir, əlavə daşınma xərci çəkilirdisə, yeni layihələrin reallaşması ilə bu problem aradan qaldırılıb. Tikinti materialları istehsal edən müəssisələr əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayır. Onu da qeyd edək ki, müasir texnoloji avadanlıqlardan səmərəli istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərin hazırlanması da diqqət mərkəzində saxlanılır, müəssisələrdə çalışan işçilərin ixtisasartırma kurslarında iştirakı təmin olunur. Bu da imkan verir ki, istehsal prosesi yerli mütəxəssislər tərəfindən həyata keçirilsin.

Son illərdə muxtar respublikada demoqrafik vəziyyətin nizamlanması, həmçinin əhalinin məskunlaşması və təsərrüfat sahələrinin inkişaf etdirilməsi, şəhərlərin, qəsəbələrin, kəndlərin sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən tədbirlər öz bəhrəsini verməkdədir. Doğma diyarımızın, eləcə də paytaxt Naxçıvan şəhərinin sosial-demoqrafik inkişafı, əhalinin mənzil-məişət şəraitinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması dediklərimizə sübutdur. Muxtar respublikada mənzil-tikinti sektoru üzrə uzunmüddətli vahid dövlət siyasətinin formalaşdırılması nəticəsində qoca Şərqin qapısı sayılan Naxçıvanda mənzil-tikinti sektoru günbəgün genişlənir və imkanlarını artırır. Əgər 22 il bundan əvvəl hər hansı bir tikinti təşkilatı ildə cəmi bir obyektdə inşaat işləri aparmaq imkanına malik idisə, bu gün dövlət qayğısından bəhrələnən və muxtar respublikanın çiçəklənməsində böyük rolu olan tikinti şirkətləri onlarla yaşayış binası tikmək imkanına malikdirlər. Ötən müddət ərzində yüzlərlə bina əsaslı şəkildə yenidən qurulub, mənzillərin sahəsi genişləndirilib, yaşayış binalarının əksəriyyəti möhkəmləndirilib və əlavə mərtəbələr artırılıb, lazımi kommunal-məişət şəraiti yaradılıb. Bu şərait sakinlərin rahatlığının təmin olunması, onların yaşayış şəraitinin daha da yaxşılaşdırılması məqsədi daşıyır. Qeyd edək ki, yaşayış standartlarının davamlı yüksəlişi, mənzil-kommunal sektorunda genişmiqyaslı yenidənqurma tədbirləri, infrastrukturun tamamilə yenilənməsi, qısacası, rahat yaşayış üçün əsas kriteriyaların tam təmin olunması muxtar respublikaya daimi yaşayış üçün gələnlərin də sayını artırıb. Son 22 ildə minlərlə ailə daimi yaşayış üçün Naxçıvana gəlib. Yaşayış üçün Naxçıvanı seçənlərin əsas səbəb kimi göstərdiyi amillər sırasında idarəetmədə insan amilinin üstünlüyü, elektrik, qaz və su təminatının yüksək səviyyədə olması, mənzillərin pulsuz təmir edilməsi, mənzillərə pulsuz qaz sobasının verilməsi, istilik xətləri və radiatorların quraşdırılması, məhəllədaxili abadlıq və təmizlik, evlərin və avtomobillərin mühafizəsi üçün əlavə xərc çəkilməməsi də var. Bütün bunlar onu göstərir ki, daimi yaşayış üçün Naxçıvanın seçilməsi uğurlu islahatların məntiqi nəticəsidir və hazırda daha da intensivləşməkdə olan bu müsbət meyilli miqrasiya prosesi mənzil bazarına ciddi təsir göstərməkdədir.

Statistik göstəricilərə nəzər salsaq, görərik ki, 2007-ci ildən 1 yanvar 2017-ci il tarixədək investisiya qoyuluşlarının 6 milyard 345 milyon 844 min 600 manatını və ya 88,7 faizini tikinti-quraşdırma işləri təşkil edib. Ümumi investisiya qoyuluşunun 4 milyard 388 milyon 679 min 200 manatı və ya 61,3 faizi istehsal təyinatlı obyektlərin, 2 milyard 765 milyon 514 min 200 manatı və ya 38,7 faizi qeyri-istehsal sahələrinin payına düşüb. Muxtar respublikada ötən 10 il ərzində infrastruktur quruculuğu tədbirləri çərçivəsində 105 elm və təhsil müəssisəsi, o cümlədən 19 min 260 şagird yerlik 63 ümumtəhsil məktəbi, 214 inzibati bina, 27 nasos stansiyası, 125 subartezian quyusu, 58 körpü, 218 mədəniyyət, 130 səhiyyə müəssisəsi, 621 istehsal və xidmət sahəsi, 16 idman obyekti, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətdən zərərçəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 117 fərdi ev və başqa obyektlər tikilib. Bundan əlavə, bu dövr ərzində 108 elm və təhsil müəssisəsi, o cümlədən 37 min 644 şagird yerlik 75 ümumtəhsil məktəbi, 126 inzibati bina, 43 nasos stansiyası, 19 subartezian quyusu, 35 körpü, 120 mədəniyyət, 20 səhiyyə müəssisəsi, 15 idman obyekti və digər obyektlər yenidən qurulub.



Yaşayış məntəqələrinin abadlaşdırılması, yaşayış yerlərində səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində ötən dövr ərzində muxtar respublikada 4 qəsəbə və 127 kənd mərkəzi istifadəyə verilib. İqtisadiyyatın aparıcı qüvvəsi olan nəqliyyat sektorunun artan əhali tələbatına uyğun olaraq səmərəli idarə olunması istiqamətində tədbirlər davam etdirilib, son on ildə muxtar respublikada 1415,5 kilometr uzunluğunda avtomobil yolları yenidən qurulub. Bu dövr ərzində hava və dəmiryol nəqliyyatının inkişafı istiqamətində infrastruktur yenilənib, inzibati və yardımçı binalar istifadəyə verilib, maddi-texniki baza gücləndirilib. Təbii ki, bu işlərin uğurla yekunlaşdırılmasında muxtar respublikada inşaat materialları istehsal edən müəssisələrin də böyük payı vardır.








Bu gün muxtar respublikada həyata keçirilən yenidənqurma və abadlıq işləri Naxçıvan şəhərinin timsalında daha aydın görünür. Son illər şəhərin küçə və meydanları, park və xiyabanları yenidən qurulub, yeni sosial obyektlər, inzibati və yaşayış binaları tikilərək istifadəyə verilib. Bu istiqamətdə həyata keçirilən tədbirlər sakinlər tərəfindən böyük rəğbət hissi ilə qarşılanır. Sakinlər Naxçıvan şəhərinin günügündən çiçəklənməsinin iftixar hissi doğurduğunu, aparılan quruculuq və abadlıq işlərindən, yaradılan yüksək şəraitdən hər bir şəhər sakininə pay düşdüyünü qeyd edirlər. Onlar yaşayış binalarının ən müasir tələblər səviyyəsində təmir olunmasını dövlətimizin insanların məişət şəraitinin yaxşılaşdırılmasına göstərdiyi yüksək diqqət və qayğının nəticəsi kimi dəyərləndirir, bu diqqət və qayğıya görə minnətdarlıqlarını bildirirlər.

***Dövlətimizin əhalinin məşğulluğunu təmin etmək üçün atdığı ardıcıl və qətiyyətli addımlar işsizi iş adamı, evsizi ev sahibi edib. Gənc ailələrin sosial müdafiəsi gücləndirilib, kiçik sahibkarlığa diqqət artırılıb, fiziki imkanları məhdud insanların bir sıra sosial layihələr çərçivəsində məşğulluğu təmin olunub. Muxtar respublika yeganə diyardır ki, bütün imkanlar sakinlərin yaxşı yaşaması, rahat şəraitdə işləməsi və istirahət etməsi üçün səfərbər edilib. Sərhədindən paytaxt Naxçıvan şəhərinə kimi istedadlı bir rəssamın incə zövqlə işlədiyi bir mənzərəyə bənzəyən muxtar respublika ulu öndərimiz Heydər Əliyevin yaratdığı Azərbaycan adlanan şah əsərin qızıl hərflərlə yazılmış səhifəsidir. Rəhbərin, yolgöstərənin bələdçiliyi ilə yenidən qovuşduğumuz məkandır.***

✍ **Nail ƏSGƏROV**

*Təhsil millətin gələcəyidir*

# Təhsil müstəqil dövlətin təməli, dünyaya açılan pəncərədir

*Ölkəmizdə, eləcə də muxtar respublikamızda təhsilin hərtərəfli yüksəlişi üçün böyük inkişafa rəvac verən sistemli tədbirlər həyata keçirilir. Muxtar respublikada müasir infrastrukturun yaradılması, məktəb tikintisinin geniş vüsət alması, təhsilin keyfiyyətinin yüksəldilməsi,* ***"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır"****, – deyən ulu öndər Heydər Əliyevin həmişəyaşar ideyalarına ehtiram və sədaqətin məntiqi ifadəsidir.*



Muxtar respublikamızda "İstedad-XXI əsr" hazırlıq kurslarının təşkili də bu istiqamətdə görülən işlərin real nəticəsidir. Kurslar yüksək biliyə malik abituriyentlərin hazırlanmasında, müxtəlif xarici dillərin tədrisində, məktəbəqədər və ibtidai sinif şagirdlərində zəkanın inkişafında üzərinə düşən vəzifələri yerinə yetirməyə səy göstərir. Məlumat üçün qeyd edək ki, yeni dərs ili ərəfəsində – sentyabr ayının 11-də Naxçıvan şəhərində "İstedad-XXI əsr" hazırlıq kursları üçün yeni tədris binası istifadəyə verilib. 300 şagird yerlik və 4 mərtəbəli yeni tədris binasında 2-si elektron lövhəli olmaqla, 20 sinif otağı, 2 kompüter otağı, müəllimlər otağı, imtahan mərkəzi, iclas zalı, qeydiyyat və mühasibatlıq otaqları, eləcə də bufet fəaliyyət göstərir. Binada 12 kompüter quraşdırılıb və internetə qoşulub.

Hazırlıq kurslarının fəaliyyəti ilə yaxından tanış olmaq üçün adıçəkilən tədris ocağında olduq. Kursun direktoru, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayevlə söhbət zamanı bildirdi ki, "İstedad-XXI əsr" hazırlıq kursları 2014-2015-ci tədris ilindən etibarən fəaliyyətə başlayıb. Yarandığı müddətdən bu günə qədər müasir təlim və tədris üsullarından istifadə, burada bacarıqlı müəllim heyətinin formalaşdırılması məzunlarımızın yüksək göstəricilər qazanmalarına imkan verib. Kurs öz fəaliyyətində "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda təsbit olunmuş prinsipləri əsas tutur. Burada abituriyent hazırlığı, müxtəlif xarici dil (ingilis, rus, alman, fransız, ispan, fars), dövlət qulluğuna hazırlıq, zəka, məktəbəqədər hazırlıq, məntiq, mühasibat kursları, "İstedad-Kids", kompüter hazırlığı, magistraturaya hazırlaşmaq istəyənlər üçün müasir tədris metoduna uyğun təhsil imkanları yaradılıb. Tədris Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Dövlət İmtahan Mərkəzinin proqramlarına əsasən və həmin qurumların dərs vəsaitləri və test toplularından istifadə etməklə həyata keçirilir. Ali məktəblərə qəbul olmaq istəyən abituriyentlər üçün qrup və fərdi şəkildə dərslər təşkil olunur. Dərs müddətində dinləyicilərin çətinlik çəkdiyi mövzular əlavə məşğələlər salınmaqla həyata keçirilir. Eyni zamanda yay tətili dövründə kursda yay məktəbləri də təşkil olunur. Burada həm şagirdlərə yeni biliklər aşılanır, onların asudə vaxtları səmərəli təşkil edilir, həm də zəka təlimlərinə və fənlərə dair bilik yarışmalarına geniş yer ayrılır. Tədris prosesində müasir texnologiyalardan istifadə məqsədilə qurulmuş elektron lövhələrdən səmərəli istifadəyə böyük önəm verilir.

Kurs tərəfindən muxtar respublikamızın ümumtəhsil məktəblərində təhsil alan şagirdlərimizin bilik və bacarıqlarının öyrənilməsi və inkişaf etdirilməsi, onlara testologiya vərdişlərinin aşılanması üçün aylıq sınaq imtahanları təşkil olunur. Bu sınaq imtahanları III-XI sinifləri əhatə edir. Sınaq imtahanlarının nəticələri *www.istedad21.com* ünvanı vasitəsilə onlayn şəkildə hər bir şagirdə fərdi iş nömrəsi vasitəsilə çatdırılır. Sınaq-test imtahanlarının keçirilməsi zamanı qəbul edilən bütün yeniliklər operativ şəkildə tətbiq olunur. Ötən tədris ilində ümumtəhsil müəssisələrinin IX sinif şagirdlərinin buraxılış imtahanı modelinə uyğun sınaq imtahanı ölkə üzrə ilk dəfə kurs tərəfindən muxtar respublikamızda keçirilib.

Elbrus İsayevin dediklərindən:
– Fəaliyyətə başladığımız 2014-2015-ci tədris ili ərzində qəbul nəticələrimiz 100 faiz olub. 17 məzun 600 baldan yuxarı nəticə göstərib, 3 məzun Prezident təqaüdünə layiq görülüb. Məzunlarımız ölkəmizin ən qabaqcıl ali təhsil müəssisələrində oxumaq imkanı qazanıblar. IV ixtisas qrupunda 6 dinləyicimizin hamısı 600 baldan yüksək nəticə göstərərək Müalicə işi ixtisasını seçib. 2015-2016-cı tədris ilinin də nəticələrini ürəkaçan saymaq olar. 91 məzunumuz 400, 49 məzunumuz 500, 20 məzunumuz 600 baldan yuxarı nəticə göstərib ki, onlardan da 2-si Prezident təqaüdünə layiq görülüb. Bu il də kursda dinləyici kimi iştirak edən məzunlar 100 faiz qəbul nəticəsi ilə etimadı doğruldublar.

Müsahibimiz onu da qeyd etdi ki, müasir təhsil strategiyasında təfəkküryönümlü metodun üstünlüyünü nəzərə alaraq kursumuzda zəka təlimləri üçün geniş imkanlar yaradılıb. Burada şagirdlərə şahmat oyunu və onun sirləri, sürətli və dəqiq şəkildə hesablama bacarıqları, sürətli oxuma, qavramanın gücləndirilməsi, özünəinamın artırılması, təfəkkürün inkişafı kimi vərdişlər aşılanır. Kurslarda 6-14 yaş arası uşaqlar iştirak edə bilərlər. Kursda, eyni zamanda xarici dillər üzrə hazırlıqlar da keçirilir ki, burada həm bu dillər üzrə qrammatik biliklər öyrədilir, həm də danışıq qrupları təşkil olunur. Xarici dillər üzrə kurslar 4 əsas bacarığın – danışıq, dinləmə, yazma və oxumanın inkişafına yönəldilib. Kurslar ən müasir metodlardan istifadə etməklə xüsusi proqramlar və CD/DVD materiallar əsasında keçirilir. Proqram seçilərkən tələbənin başlanğıc bilik səviyyəsi, sərbəst vaxtı və dili öyrənməkdə məqsədi nəzərə alınır. Dərslər iştirakçıların seçiminə əsasən fərdi və kiçik qruplar şəklində keçirilir.

Bu təhsil ocağında "İstedad-Kids" kursu da fəaliyyət göstərir. Kurs məktəbəqədər uşaqlara biliklərin aşılanmasına xidmət edir. Naxçıvanda ilk dəfə olaraq 4-10 yaş qrupu üzrə həftənin iki günü 10 ay müddətində dinləmə və izləmə ağırlıqlı ingilis və rus dili tədrisinin qeydiyyatı da istedad kurslarında aparılır. Bu kursu digərlərindən fərqləndirən başlıca xüsusiyyət dərslərin hər bir mövzuya uyğun olaraq hazırlanan audio və video vəsaitlər, interaktiv oyunlar, yerli ekskursiyalar, ingilis və rus dilində hazırlanmış səhnəciklər şəklində keçilməsidir. Bu da uşaqların xarici dilləri mükəmməl öyrənmələrinə imkan verir. Dərslər Kembric Universitetinin "Kids preschool" proqramı əsasında, beynəlxalq sertifikatlara malik peşəkar müəllimlər tərəfindən aparılır. Proqramı 5 ay müddətində mənimsəmiş hər bir şagird səviyyə imtahanına buraxılır və minimum 70 bal toplamış şagirdlər növbəti proqramlara keçid hüququ əldə edirlər. Qeydiyyat zamanı hər bir şagirdə xas psixoloji və zehni sorğular tərtib edilir və yalnız bu sorğudan keçmiş şagirdlər kursda təhsil hüququna malik olurlar.

Hazırda kursa dinləyici qəbulu il ərzində iki dəfə olmaqla, qruplar üzrə imtahan yolu ilə aparılır. Qrup üzrə 1-ci, 2-ci və 3-cü yerləri tutan şagirdlər müvafiq olaraq 50, 30, 20 faiz güzəştlərdən istifadə edə bilirlər. 600 baldan yuxarı nəticə göstərən şagirdlərə də güzəşt tətbiq olunur, 650 baldan yuxarı nəticə göstərən şagirdlər isə kursda ilboyu ödənişsiz təhsil almaq imkanı qazanırlar. Eyni zamanda aylıq daxili sınaq imtahanlarında da yüksək nəticə göstərən şagirdlərimizə ödənişdə güzəştlər tətbiq olunur. Bununla yanaşı, müharibə veteranı, əlil, şəhid ailələrinin övladları, valideyn himayəsindən məhrum olan şagirdlərimiz də tam və ya qismən təhsil haqqından azaddırlar.

Elbrus müəllim bildirdi ki, 2017-2018-ci tədris ilindən Şərur, Şahbuz, Culfa və Ordubad filialları fəaliyyətə başlayıb. Bütün filiallara müəllim qəbulu üçün imtahanlar keçirilib. Hazırda kursun mərkəz və filiallarına 2017-2018-ci tədris ili üçün dinləyici qəbulu aparılır. Rayonlarda filialların yaradılmasında məqsəd abituriyentlərin üzləşdikləri çətinlikləri aradan qaldırmaqdır.

Kursun bu il yüksək nəticələr əldə edən məzunları ilə də görüşdük. İlk müsahibimiz 670 balla Naxçıvan Dövlət Universitetinin İngilis dili tərcüməçiliyi ixtisasına qəbul olan Lətif Sadiqov oldu. O dedi ki, orta məktəbdə oxuyandan humanitar fənləri daha çox sevir, fənn olimpiadalarında fəal iştirak edirdim. Arzum yüksək nəticə əldə etmək və Naxçıvan Dövlət Universitetinin tələbəsi olmaq idi. Bunun üçün səylə çalışdım və istədiyim nəticəni əldə etdim.

Məzunlardan biri də 662 balla Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi adını qazanan Sultan Məmmədovdur. Onunla telefon bağlantısı zamanı kursun yaratdığı üstünlüklər barədə ürəkdolusu danışdı.

Kursla bağlı olan bu sualı hər iki müsahibimə ünvanladım: "Niyə repetitor hazırlığını yox, məhz kurs hazırlığını seçdiniz, sizcə, bunlar arasında hər hansı fərq varmı?"

Onlar bildirdilər ki, kursda dərslər sistemli şəkildə keçilir. Repetitor yanına gedərkən abituriyentin vaxt itkisi çox olur. Bu da fikir dağınıqlığının yaranmasına gətirib çıxarır. Kursda həm də hər həftənin sonunda keçdiyimiz dərslərdən test imtahanı verirdik. Bütün bunlar dərsləri təkrarlamaq, buraxdığımız səhvləri tapmaq və həmçinin qəbul imtahanlarına psixoloji cəhətdən hazırlaşmaq məqsədi daşıyırdı.

*Heç şübhəsiz ki, təhsil hər bir xalqın milli intibahını təmin edən ən zəruri vasitədir. Cəmiyyət qarşısında dayanmış bir sıra əsaslı problemlərin həlli, ilk növbədə, bu sahənin inkişafından keçir. Sevindirici haldır ki, bu gün muxtar respublikamızda digər sahələr kimi, təhsil sahəsi də öz tərəqqi dövrünü yaşayır.*

✍ **Gülcamal TAHİROVA**

***Osmanlı dövründə böyüyən və Nəqşibəndi təriqətinin böyük mütəfəkkirlərindən sayılan, hörmət və izzət sahibi İslam alimlərindən olan Baba Nemətullah Naxçıvani Şərqin gözəl diyarı Naxçıvanda anadan olub.***

*Naxçıvanın Azərbaycana bəxş etdiyi ilklər*

# "Qurani-Kərim"i təsəvvüf üslubunda şərh edən ilk alim naxçıvanlıdır

Alimin həyatı haqqında çox az məlumat vardır. Qaynaqlarda onun Ağqoyunlu hökmdarı Uzun Həsənin dövründə (1467-1478) təhsil aldığı, Sultan Yaqubun dövründə isə (1478-1490) Naxçıvan mədrəsələrində müəllimlik etdiyi söylənilir. Mənbələrdə ondan Şeyx Əlvan, Ulvanəl Ağşəhri, Nemətullah Baba, Nemətullah Sultan, Baba Nemət, Baba Naxçıvani kimi bəhs edilir (o dövrdə dərvişlər türk xalqları arasında "baba" və "dədə" adlarıyla bilinirdi). Həyatının çox hissəsini Naxçıvanda keçirən Nemətullah Naxçıvani yaşadığı dövrün görkəmli alimlərindən dərs alıb, dünyəvi elmlərə dərindən bələd olub, sonra isə təsəvvüfə yönəlib. O, yaşadığı dövrdə bir sıra dəyərli alimlərlə tanış olub, onlardan xeyir-dua alıb. Özünəməxsus biliyi və dərin mənəvi keyfiyyətləri ilə məşhurlaşan Baba Nemətullah Naxçıvani Türkiyəyə gedib, Ağşəhərdə yaşamağa başlayıb.

Nemətullah Naxçıvaninin yazdığı əsərlər əxlaq, fəzilət, elm və ürfan nümunəsi kimi məşhurlaşıb, ona xalqın rəğbət və məhəbbətini qazandırıb. Zahiri və batini elmlərdə çox yüksək biliyə malik Nemətullah Naxçıvani mənəvi elmlərdəki dərin biliyi ilə təsəvvüfdə ilahi sirlər dənizinə vaqif olanlardandır.

Professorlar Fəxrəddin Səfərli və Məmməd Rzayev öz məqalələrində onun fəlsəfi görüşlərindən bəhs edib, həyat və yaradıcılığı haqqında maraqlı faktlar irəli sürüblər. Əhməd Faruq Güney də öz elmi əsərlərində alimi məşhurlaşdıran təfsirlərindən bəhs edib. Əhməd Faruq Güney araşdırmasında Nemətullah Naxçıvaninin həyatı, yaradıcılığı və naxçıvanlı olması haqqında məlumat verib.

Onun qəbri Konya bölgəsinə bağlı Ağşəhər dərəsinin yuxarısında, Baştəkkə yolu üzərindədir. Məzarı 1852, 1889 və 1995-ci illərdə bərpa olunub.

Baba Naxçıvaninin "Əl-Fəvatihul-ilahiyyə vəl məfatihul-qeybiyyə əl-muzihatu lil-kəlimil-Quraniyyə vəl-hukəmil-Furkaniyyə" adlı təfsir kitabı ona şöhrət qazandıran əsərlərindəndir. Bu əsər İslam ədəbiyyatında Quranı təsəvvüfi üsulla təfsir edən ilk əsər hesab edilir. Əsər o dövrdə çox məşhurlaşıb. Baba Naxçıvaninin öz əli ilə yazdığı nüsxəsinin ikinci cildi Türkiyənin İstanbul şəhərindəki Topqapı Sarayının III Əhməd kitabxanasında saxlanılır.

Onun yazdığı "Şərhi-əsrarin-nöqtə", "Hidayətül-ixvan", "Təhqiqat", "Vücudiyyə", "Məcmuai-lətaif", "Hidayə", "Nikat", "Mükaşəfə", "Əsilə vəl əcibə" və sair kimi əsərləri də çox qiymətli yaradıcılıq nümunələridir.

Naxçıvaninin yazdığı əsərləri yaşadığı dövrdə ziyalılar öz aralarında pul toplayaraq nəşr etdirib, əsərləri bir çox alimin inkişafının mayası olub. Hələ də Ağşəhərdə qəbri ziyarət edilən, hörmət və izzətlə anılan Baba Naxçıvani Türkiyədə böyük nüfuza malik şəxsiyyətlərdəndir. Onun adını daşıyan ümumtəhsil məktəbinin olması bunun bariz nümunəsidir.

Ağşəhər bələdiyyəsinin ərazisində tikilən məktəbə Baba Nemətullah Naxçıvaninin adının verilməsi böyük marağa səbəb olub. Bu addım Nemətullah Naxçıvaninin həyat və yaradıcılığının öyrənilməsində yeni cığır açmaqla bərabər, insanların diqqətini Naxçıvana yönəldib.

"Möhtəşəm üslub gözəlliyinə sahib təfsir alimi" və "rəbbani elmlərdə mütəbahhir bir mütəsəvvüf" kimi tanınan alim Nəqşibəndi təriqətinin xəlvəti qoluna mənsubdur. Xəlvətiliyin əsas xüsusiyyəti "cəmiyyət içində xəlvətdə" yaşamaq olduğundan, Baba Naxçıvani də həyatının çoxunu tənhalıqda keçirmişdi. Onun haqqında məlumatların azlığı da bununla əlaqədardır. Xəlvətə çəkilməsinin ikinci səbəbi o dövrdə şeyxlik və fəqihlik adı ilə bəzi adamların xalqı aldatması və bu məqsədlə sərvət toplaması göstərilir.

Buna rəğmən Baba Naxçıvani öz dövrünün və sonrakı dövrlərin böyük nəqşibəndi şeyxi olaraq zikr olunur. Üsul və fiqhdə kamil şəxsiyyət olduğu və təsəvvüf ədəbiyyatı tarixinin ən gözəl sufiyanə təfsirini yazdığı bilinir.

Baba Naxçıvaninin ikinci əsəri "Şərhi əsrarin-nöqtə" adlanır. Uzun illər bu əsərin ona aid olduğu haqqında şübhələr vardı. Amma əsərin onun adıyla yeni nüsxələrinin tapılması bu şübhələri ortadan qaldırdı. Əsər vəhdəti-vücud anlayışının şərhindən ibarətdir.

Baba Naxçıvaninin üçüncü əsəri "Hidayətül-ixvan"dır. Bir növ təsəvvüf qardaşlığının islami fəlsəfəsini yaradan kitab çox qiymətli mənbə hesab edilir. Ərəbcə qələmə alınan əsər Türkiyədə tərcümə edilib nəşr olunmuşdu.

"Hidayətül-ixvan"da alim çox ciddi islami kəlamları şərh edib, "Qurani-Kərim"in fərqli şəkildə təhlilini verib. Bununla yanaşı, hikmət sahiblərini, alimləri, filosofları İslama çox ciddi yanaşmağa çağırıb.

Baba Nemətullah Naxçıvani nəinki Naxçıvanı, həm də ölkəmizi ilahiyyat elmlərində tanıdıb. Beləliklə, Şərqdə bir çox sahələrdə olduğu kimi, ilahiyyat elmlərində də ilklər Naxçıvanın adı ilə bağlı olub.

**Nərgiz İSMAYILOVA**

***50 illik yubileyi təntənəli şəkildə qeyd olunan Naxçıvan Dövlət Universitetinin ötən müddət ərzində ölkəmiz üçün müxtəlif ixtisaslar üzrə mütəxəssislər yetişdirməsindəki fəaliyyəti nümunə gücündədir. Bu baxımdan ali təhsil ocağının İncəsənət fakültəsinin tərkibində 1998-ci il martın 28-də yaradılmış Tələbə Teatr Studiyasının öz ətrafına topladığı istedadlı tələbələrin təhsillərini başa vurdurdan sonra müxtəlif teatrlarda çalışması diqqətəlayiqdir. Studiyanın fəaliyyəti ilə yaxından tanış olmaq üçün kollektivin rəhbəri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Gülxarə Əhmədova ilə həmsöhbət olduq. O bildirdi ki, studiya universitetin mədəni həyatının tərkib hissəsinə çevrilib. Yaradıcı qurum tələbə-gənclərin istedad və qabiliyyətlərinin üzə çıxarılmasında mühüm rol oynayır.***

# Dünyanı elmlə yanaşı, incəsənət vasitəsi ilə də öyrənmək mümkündür

## *Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyasının tarixinə bir nəzər*





Studiyanın ilk tamaşası kimi “Beyrəyin andı” pyesi seçilib. Dərin həyati fəlsəfəsilə fərqlənən pyes tarixi-mənəvi dəyərlərimizin ədəbi abidəsi “Kitabi-Dədə Qorqud” dastanlarının motivləri əsasında, müasir düşüncə prizmasında uğurlu həllini tapıb.

“Kitabi-Dədə Qorqud” dastanının 1300 illiyinə yaradıcı heyətin layiqli töhfəsi kimi ilk tamaşa 1999-cu il may ayının 29-da nümayiş etdirilib. Tələbə-aktyorların ifaları təbii təsir bağışlayaraq rəğbətlə qarşılanıb. Tamaşa Türkiyə səhnəsində də oynanılıb. Həmin il iyul ayının 18-dən 24-dək Türkiyə Respublikasına dəvət olunmuş kollektiv Bayburt şəhərində keçirilən “Dədə Qorqud-1300” Beynəlxalq Mədəniyyət və Sənət Festivalında tamaşanı nümayiş etdirib, xüsusi diploma layiq görülüb.

1999-cu il 11 oktyabrda Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusunun açılışından sonra ümummilli lider Heydər Əliyevin də tamaşa etdiyi “Prezidentim, 100 yaşa” ədəbi-bədii kompozisiyası alqışlarla qarşılanıb. Studiyanın ikinci tamaşası türk yazıçısı Turan Oflazoğlunun birpərdəli “Atatürk” əsəri əsasında səhnələşdirilmiş “Türklərin Atatürkü” olub və 2000-ci ilin aprel ayının 6-da Naxçıvan Dövlət Universitetinin səhnəsində göstərilib. Tələbə-aktyorlar bu səhnə əsərində də bacarıq və istedadlarını nümayiş etdiriblər.

Daha sonra yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin “Anamın kitabı” pyesi səhnələşdirilib. Bu tamaşanı studiyanın tarixində ayrıca mərhələ kimi qiymətləndirmək olar. Belə ki, 2003-cü il oktyabr ayının 17-də Dövlət Müstəqilliyi Günü münasibətilə keçirilən tədbirdə “Anamın kitabı” tamaşası Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində müvəffəqiyyətlə nümayiş etdirilib.

Studiyanın fəaliyyəti ilə bağlı “Tələbə Teatr Studiyasının böyük uğurları” adlı məqalənin müəllifi, şair-jurnalist, tarix üzrə fəlsəfə doktoru, mərhum Vaqif Məmmədov yazırdı: “Ümumiyyətlə, Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyası kollektivinin ifasında “Anamın kitabı” tamaşası ilə tanışlıqdan sonra bu qənaətə gəlmək olur ki, həmin kollektiv Naxçıvan Dövlət Universiteti teatr sənəti baxımından təmsil etmək qüdrətinə malikdir”.

Universitet Tələbə Teatr Studiyasının növbəti böyük uğuru, nailiyyəti kimi qeyd edilə biləcək tamaşa Cəlil Məmmədquluzadənin “Ölülər” əsərinə yeni səhnə həyatının verilməsidir. Tamaşa Cəlil Məmmədquluzadənin 140 illik yubileyinə layiqli töhfələrdən biri sayıla bilər.

Sonrakı illərdə bu studiya səhnəyə qoyduğu “Milaxda həyəcan”, “Qəribə adam” tamaşaları antik yunan dramaturqu Esxilin “Zəncirlənmiş Prometey” faciəsi ilə uğurla çıxış edib.

Bu gün Naxçıvan Dövlət Universitetində teatr mühiti formalaşmaqdadır. 2011-ci ildən bəri bu ali təhsil ocağında aktyorluq ixtisası üzrə kadr hazırlığına başlanması bu mühitin daha geniş sferada inkişafına imkan verib. Əvvəllər studiyada müxtəlif ixtisaslarda təhsil alan tələbələr fəaliyyət göstərirdi. Altı ildir ki, tələbə teatrına daha çox aktyorluq sənətini seçən tələbələr cəlb edilir, onlar burada ilk səhnə təcrübəsinə yiyələnirlər.

Müsahibimiz sonda V.Q.Belinskinin “dünyanı təkcə elm vasitəsi ilə deyil, həm də incəsənət vasitəsi ilə öyrənmək mümkündür” fikrini xatırladaraq deyir:

– Tələbələrin səhnə fəaliyyətinə hazırlanmasında yaradıcı təxəyyül mühüm psixoloji amil kimi əhəmiyyətlidir. Teatr sənətini incəsənətin başqa növlərindən fərqləndirən əsas cəhət kimi biz tamaşada heç bir sənət növündə nümayiş etdirilməsi mümkün olmayan prosesi – həyatı canlı hərəkətdə görür, yaşayır, təxəyyülün geniş imkanlarını izləyirik. Yaxşı qavrama və incə müşahidə qabiliyyəti səhnə sənətinə yiyələnən hər bir tələbə-aktyorda formalaşır. Tələbə-aktyorlar, birinci növbədə, özlərində müxtəlif həyati vəziyyətlərdə insanın davranış xüsusiyyətlərini bütün təfsilatı ilə görür, baş verən hadisələri daxili dərk etmək bacarığına yiyələnirlər. Aktyor-tələbə nəinki həyatı bütün təzahür formaları ilə qavrayır və müşahidə edir, o həm də qavradığı duyğuları və apardığı müşahidələri öz yaddaşında qoruyub saxlamağı bacarır, özündə insanın xarakteri ilə xarici mühit arasında mövcud olan incə əlaqəni duyur və təxəyyülündə canlandırır.

Gülxarə Əhmədova bildirib ki, Tələbə Teatr Studiyası Naxçıvan Dövlət Universitetinin 50 illik yubiley tədbirinə ciddi hazırlaşır. Kollektiv Həmid Arzulunun tərcümə etdiyi Qothold Efraim Lessinqin “Emiliya Qolotti” faciəsinin tamaşası üzərində məşqlər aparır. Qeyd edək ki, studiya növbəti ildə 20 illik yubileyini keçirməyə hazırlaşır. Bu münasibətlə yeni kitab çap olunacaq.

Aktyorluq ixtisasının tələbələri Seymur Babayev, Rauf Gülməmmədov, Vəfa Qurbanova və başqaları ilə də həmsöhbət oldum. Onlar bildirdilər ki, həvəs, istək, istedad olmadan incəsənət adamı olmaq mümkün deyil. Aktyor səhnədə öz rolunu elə ifa etməlidir ki, tamaşaçını ona inandıra bilsin. Buna görə də oynayacağın rolu dərk etməli, həmin obraza özünü inandırmalı, sonrakı mərhələdə bunu tamaşaçılara aşılamalıdır.

Bu sənəti sevməkdə onlarla yorulmadan, səylə çalışan müəllimlərin böyük rolu olduğunu deyən tələbələr bildirdilər ki, insanın hər hansısa bir sənəti sevməyinə səbəb olan biri mütləq vardır ki, bizim üçün də həmin simalar sənət müəllimlərimizdir.

Burada aktyorluq ixtisası ilə yanaşı, fərqli ixtisaslardan olan tələbələrlə də görüşdük. Kitabxanaçılıq ixtisası üzrə 3-cü kurs tələbəsi Vüsal Sultanlı dedi ki, incəsənətlə məşğul olmaq üçün həmin fakültənin tələbəsi, məzunu olmaq vacib deyil. Əlbəttə, bir sahə üzrə təhsil alıb, onun nəzəri biliklərinə yiyələnmək mütləqdir, lakin onu daxilində hiss edə bilirsənsə, istedadın da varsa, az-çox öhdəsindən gələ bilərsən. Mən də məhz elə bu düşüncəylə bu gün burdayam.

Başqa bir tələbə, Tarix-filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyat ixtisası üzrə 2-ci kurs tələbəsi Nuray Mahmudova isə öz ixtisası olmamasına baxmayaraq, bu sənəti çox sevdiyini bildirir. Aktyorluqla məşğul olmağın onun ixtisasına da bilavasitə təsir göstərdiyini deyən Nuray məşqlər nəticəsində nitqinin formalaşdığının da fərqində olduğunu bildirdi.

Təsviri incəsənət ixtisasının tələbələri Əli Qasımov və Xəyal Babayev də fakültənin tədbirlərində fəal olmağa çalışır, bununla da doğma universitetlərinə öz töhfələrini verirlər.

Universitetin ictimai həyatında fəallıq göstərən bu gənclərə müvəffəqiyyətlər arzulayıb onlardan ayrılıram.

Qeyd edək ki, studiya universitetdə keçirilən bayramların, əlamətdar günlərin, folklor şənliklərinin, festivalların və toplantıların, meydan tamaşalarının bilavasitə təşkilatçısı və iştirakçısıdır. Studiyanın “Yallı” qrupu bu tədbirlərdə həmişə öz maraqlı çıxışları ilə seçilir. “Kosa-kosa” meydan tamaşaları da studiya üzvlərinin fəallığı sayəsində ərsəyə gələn tədbirlərdəndir.

Onlara yeni yaradıcılıq uğurları arzulayırıq.

✍ **Fatma BABAYEVA**

# İnsan əllərinin yaratdığı möcüzə

***Azərbaycanda oyma, yonma, döymə üsulu ilə sənət əsərlərinin yaradılması ənənəsi tarixən mövcud olub. Ölkəmizin qədim məskənlərindən olan Gəmiqayada və Qobustanda daşlar üzərindəki oymalar, rəsmlər, fiqurlar buna sübutdur.***



Bu gün haqqında danışacağımız sənətkar daşduzdan əl işləri yaradan Naxçıvan şəhər sakini Zülfüqar Zeynalovdur. Doğma Naxçıvanımızı müalicə turizmi məkanı kimi də şöhrətləndirən, tariximizin qədimliyinin daş möhürü olan duz Zülfüqar Zeynalov üçün ilham mənbəyidir. Bu günə kimi 30-a yaxın sənət əsəri ərsəyə gətirən usta nəinki Naxçıvanda, bütövlükdə Azərbaycanda yeganə sənətkardır ki, əsərlərini daşduzdan yaradır. Cansız daşduz parçalarından yaratdığı əl işləri insanı düşüncələr aləminə aparır. Daşduzdan bacarıqla istifadə edərək əsərlər yaradan usta deyir ki, dünyanın bir sıra ölkələrinin muzeylərində gördüyüm müxtəlif daş materiallardan hazırlanmış eksponatlarla bağlı videokadrlara həsədlə baxardım. Əvvəlcə taxtadan, keramikadan müxtəlif suvenirlər, abidələr hazırlayırdım. 2004-cü ildə isə daşduzdan ilk əl işim olan qılıncı ərsəyə gətirdim. Zülfüqar ustanın sözlərinə görə, daşduzla işləmək, ondan sənət əsəri yaratmaq o qədər də asan deyil. Necə deyərlər, yüz ölçüb, bir biçməlisən. Daşduz adi daş kimi mülayim, “sözəbaxan” olmadığına görə bu materialla işləyən zaman daha dəqiq və diqqətli olmaq lazımdır. Bu sənət insandan dözüm, səbir, istedad, sevgi tələb edir. Bunlar kompleks şəkildə olanda yaxşı əsər meydana gəlir.

Zülfüqar usta onu da bildirir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanan “Naxçıvan Duz Muzeyinin yaradılması haqqında” 2017-ci il 12 sentyabr tarixli Sərəncam onu da xeyli sevindirir. O deyir ki, hazırladığı bütün sənət əsərlərini yaradılacaq Naxçıvan Duz Muzeyinə hədiyyə etməyə hazırdır. Bu sənət nümunələri həm də doğma diyarımıza dünyanın dörd bir guşəsindən gələn turistlər vasitəsilə xarici ölkələrə yol açacaq, Naxçıvanın qədimliyini, bu gününü, sağlamlıq baxımından duzun oynadığı rolun daha geniş mənada təbliğinə imkan yaradacaq.

Qeyd edək ki, bu il Novruz bayramında “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində sərgilənən daşduzdan düzəldilmiş əl işlərinə böyük maraq olub.

Məlumdur ki, Naxçıvan şəhəri 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı elan olunub. Zülfüqar ustanın əl işlərində əksini tapan loqotip və tarixi abidələr də bu əlamətdar tarixə töhfədir.



Zülfüqar usta ən böyük arzusunun daşduzdan müstəqil Azərbaycanımızın qurucusu Heydər Əliyevin abidəsini yaratmaq olduğunu deyir. O, hazırda “Üzüm bağında lampa” adlı əsər üzərində işləyir. Zülfüqar ustanın küsüşən butalar, tar, kamança, qaval təsviri, “İslami dəyərlərin simvolu”, “İlahi kitabə”, “Naxçıvanqala”, “Çay dəstgahı”, “Möminə xatın türbəsi”, “Azərbaycan bayrağı”, “İslam Həmrəyliyi Oyunlarının simvolu”, “Saz”, “Delfin”, müxtəlif qab nümunələri, çıraqlar, güldanlar, gülabdanlar, badya, vaza və digər əl işləri onun istedadının təcəssümü, bu insana bəxş edilən yaradıcılıq bacarığının məhsuludur. Gecəni nura qərq edən lampalara baxanda Naxçıvan duzuna, bu sərvətdən incəsənət nümunələri yaradan insanın yaradıcılığına valeh olursan.

✍ **Ramiyyə ƏKBƏROVA**

# Gənclərin muzeylərə ekskursiyası təşkil olunub

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirliklərinin, Gənclər Fondunun, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə “Naxçıvanı tanıyaq” devizi altında gənclərin Ordubad rayonunda yerləşən muzeylərə ekskursiyası təşkil olunub.

Əvvəlcə Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Tahir Məmmədli çıxış edərək gəncləri muxtar respublikada turizmin inkişaf etdirilməsi ilə bağlı görülən işlərdə aktiv olmağa və gəzinti zamanı çəkilmiş fotoşəkillərin sosial şəbəkələrdə müxtəlif xarici dillərdə paylaşılmasında fəallıq göstərməyə çağırıb. Gənclərin gəzintiləri Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyindən başlayıb. Burada onlara eksponatlar haqqında məlumat verilib.

Sonra gənclər kimyaçı-alim Yusif Məmmədəliyevin, pedaqoq, şair-publisist Məhəmməd Tağı Sidqinin və yazıçı-publisist Məmməd Səid Ordubadinin ev-muzeylərində olublar.

Muzey bələdçiləri Azərbaycan elminə, ədəbiyyatına öz töhfələrini vermiş şəxsiyyətlər haqqında geniş məlumat veriblər.

Ekskursiyada 30 gənc iştirak edib.

✍ **Ceyhun MƏMMƏDOV**

**İtmişdir**

Novruzov Atif Məhərrəm oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 760